

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır



# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 87 (23.499)

9 iyun 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Test imtahanları keçirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən muxtar respublikanın dövlət ümumi təhsil müəssisələrində alman dili müəllimliyi və digər vakant vəzifələrə (psixoloq, laborant, kitabxana müdiri, kitabxanaçı, tərbiyəçi və uşaq birliyi təşkilatının rəhbəri) işə qəbul üçün 18 mart 2020-ci il tarixdə elan edilmiş müsabiqənin test imtahanlarına 8 iyun tarixdən start verilib.



Müsabiqəyə çıxarılmış 140 vakant vəzifənin tutulması üçün 160 namizəd sənəd təqdim edib. Müsabiqədə hər bir namizədə, ümumilikdə, 60 olmaqla, müəssisələrdə tədris olunan ixtisaslar üzrə fənn proqramlarına aid 40, tədris metodikası və təlim strategiyalarına aid 20 test tapşırığı təqdim edilir.

Namizədlərə test tapşırıqlarının yerinə yetirilməsi üçün 90 dəqiqə vaxt verilir və hər bir düzgün cavab bir balla qiymətləndirilir. Qanunvericiliyə əsasən keçid balını yığmaqla ən yüksək bal toplamış şəxs müvafiq vəzifəyə təyin olunacaqdır.

Stimullaşdırıcı tədbirlər tətbiq olunan müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 50 faizini (30 bal), digər müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 75 faizini (45 bal), tərbiyəçi, psixoloq, uşaq birliyi təşkilatının rəhbəri, laborant, kitabxana müdiri, kitabxanaçı vəzifələrinə işə qəbul üçün isə test tapşırıqlarının 40 faizini (24 bal) düzgün cavablandırmış namizədlər keçid balını toplamış hesab edilir.

İmtahan zamanı karantin rejiminin tələblərinə əməl olunub.

Dövlət ümumi təhsil müəssisələrində vakant vəzifələrin tutulması üçün elan olunmuş müsabiqədə orta ixtisas və ali təhsil müəssisələrini pedaqoji ixtisaslar üzrə bitirmiş və dövlət nümunəli təhsil sənədi, yaxud ali və ya orta ixtisas təhsili müəssisəsini bitirmə haqqında sənəd almış, xarici ölkədə aldığı təhsil sənədi qanunvericiliklə müəyyən edilmiş qaydada tanınmış Naxçıvan Muxtar Respublikasında yaşayan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilirlər.

Elektron proqram təminatı vasitəsilə keçirilən test imtahanlarında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə videoçəkiliş aparılır. İmtahan bitdikdən dərhal sonra iştirakçılara "test imtahanının nəticəsinə dair arayış" təqdim edilir.

Nəticələr gündəlik olaraq Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilir. Test imtahanları 18 iyun 2020-ci il tarixədək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

***Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlər Vətənə sədaqət and içiblər. Andiçmə mərasimində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra gənc əsgərlər hərbi andı qəbul ediblər.***

## Andiçmə mərasimi olub



Mərasimdə çıxış edənlər gənc əsgərləri təbrik ediblər. Əsgərlər də Vətənə sadiq olacaqlarına söz veriblər.

Çıxışların ardından general-mayor Teymur Eyyubov Əlahiddə Ümumqoşun Ordu Komandanı, general-leytenant Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdırıb. Bildirilib ki, Vətənin bacarıqlı müdafiəçisi olmaq üçün hər bir əsgər hərbi andın tələblərini şüurlu surətdə yerinə yetirməli, intizamlı, vicdanlı və cəsarətli olmalı, ona həvalə edilmiş silah və texnikanı dərindən öyrənməli, Vətən qarşısında öz hərbi andı ilə öhdəsinə götürdüyü əsgəri borcunu ləyaqətlə yerinə yetirməlidir.

Tədbir şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Kənan CƏLİLOV**

## Yeni quruculuq ünvanı



Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi üçün tikilən bina yeni quruculuq ünvanlarındandır. Burada inzibati bina və texniki qarajların tikintisi işləri uğurla davam etdirilir. Tikintisinə 2019-cu ildə başlanan binada elektrik və su xətlərinin çəkilişi, çöl fasadın üzlənməsi, həmçinin yeni inşa olunan beşmərtəbəli təlim qülləsində suvaq işləri yekunlaşıb. Yaxın gələcəkdə istifadəyə veriləcək inzibati binada iş otaqları, arxiv, müşahidə zalı və mətbəx yerləşəcək.

Onu da qeyd edək ki, ən müasir standartlara cavab verəcək binanın həyətində 84 ton su tutumu olan qapalı hovuzun və anbarların tikintisinə başlanılıb.

**Alim AĞAYEV**

## Naxçıvanda yeni "FAW" markalı avtomobillərin istehsalına başlanılıb





*Muxtar respublikamızın mühüm sənaye müəssisələrindən olan Naxçıvan Avtomobil Zavodu 2010-cu ildən fəaliyyət göstərir. 2472 kvadratmetrlik əraziyə malik zavodda avtomobil sənayesində tətbiq olunan müasir dizayn, təhlükəsizlik və ekoloji normalara uyğun avtomobillər istehsal edilir. İstehsal prosesində Almaniya, İtaliya və Belçikadan gətirilmiş müasir texnoloji avadanlıqlardan istifadə olunur.*



İndiyədək müxtəlif modellərdə "NAZ Lifan" markalı avtomobillərin istehsal olunduğu müəssisə istənilən modeldə minik və yük avtomobilləri istehsal etmək imkanına malikdir. Zavodda həm mexaniki, həm də avtomatik sürət qutusu ilə işləyən avtomobillər istehsal edilir. 2019-cu ilin aprel ayından "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının tərkibinə daxil edilən Naxçıvan Avtomobil Zavodunda artıq yeni modeldə avtomobillərin istehsalına başlanılıb. Belə ki, Çinin "FAW İndustrial Group" avtomobil istehsalçısı ilə bağlanmış müqaviləyə əsasən hazırda zavodda ilkin olaraq 3 ədəd "FAW T-33" krossover və 6 ədəd "FAW T-80" yük avtomobillərinin istehsalına başlanılıb. Yaxın gələcəkdə isə əlavə olaraq "FAW T-33" krossover, "Lifan X-70" krossover və "Lifan L-7" minivantipli avtomobillərin yığılmasına başlanılacaq. Növbəti mərhələdə isə 58 ədəd "FAW" modellərinin istehsalı nəzərdə tutulub.

Müəssisədən aldığımız məlumata görə, hazırda burada "Lifan" markalı avtomobillər ilkin olaraq 20 faizi ödənilməklə 48 ay müddətinə, "FAW" markalı avtomobillər isə ilkin olaraq 25 faizi ödənilməklə 36 ay müddətinə daxili kreditlə təklif olunur. Bundan əlavə, satılacaq yeni avtomobillər üçün güzəştli kampaniyalar da nəzərdə tutulub.

Qeyd edək ki, Naxçıvan Avtomobil Zavodunun Naxçıvan və Bakı şəhərlərində satış mərkəzləri, texniki xidmət şöbələri və avtomobillərin ehtiyat hissələrinin satışı mağazaları, həmçinin Şərur və Culfa rayonlarında avtomobillərin servis mərkəzləri fəaliyyət göstərir.

**✍ Səbuhi HƏSƏNOV**

## Ötən ay 117 nəfərə əmək pensiyası təyin olunmuşdur



*Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar iqtisadi, eyni zamanda sosial müdafiə sahəsində qarşıya qoyulmuş hədəflərin uğurla gerçəkləşdirilməsinə geniş imkanlar yaratmışdır. Bu inkişafda özünəməxsus yeri olan muxtar respublikamızda həyata keçirilən məqsədyönlü tədbirlər iqtisadi və sosial sahədə davamlı inkişafı təmin etmişdir.*

Muxtar respublikada əhalinin bütün təbəqələrinin, o cümlədən cəmiyyətin həssas qrupu sayılan əmək pensiyaçılarının rifah halının yüksəldilməsi, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mütəmadi olaraq tədbirlər görülür.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu ötən ay ərzində nəzərdə tutulmuş tapşırıqların icrasını təmin etmişdir. Belə ki, əmək pensiyaçılarına pensiya ödənişinin maliyyələşdirilməsi üçün müvafiq tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə tələb olunan vəsait pensiyaçıların plastik bankomat kart hesablarına köçürülmüş, yerlərdə isə poçt bölmələri vasitəsilə ödənilmişdir. Eyni zamanda əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin ödənilməsi də diqqət mərkəzində saxlanılmış, həmin şəxslərə müvafiq məbləğdə vəsait ödənilmişdir.

Pensiya hüququ yaranmış 117 vətəndaşa fond tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş qaydada əmək pensiyası təyin olunmuşdur. Bunlardan 91-i yaşa, 5-i əlilliyə, 21-i isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxmış vətəndaşlardır. Eyni zamanda əmək fəaliyyətinə yeni başlayan işçilərin fərdi uçot sistemində qeydiyyata alınması və sosial sığorta şəhadətnamələri ilə təmin olunması diqqətdə saxlanılmışdır. Belə ki, işəgötürənlər tərəfindən yeni əmək fəaliyyətinə başlayanlara sosial sığorta şəhadətnamələrinin hazırlanması üçün 120 ərizə forması elektron imza vasitəsilə sifariş verilmişdir.

Ötən ay Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq 17 nəfər 1941-1945-ci illərdə İkinci Dünya müharibəsi iştirakçılarının hər birinə 1500, 589 nəfər İkinci Dünya müharibəsində həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş və sərəncamda nəzərdə tutulmuş digər şəxslərin hər birinə isə 750 manat məbləğində birdəfəlik maddi yardımın həmin şəxslərin bank hesablarına köçürülməsi təmin olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Sədərəkdə taxıl biçininə hazırlıq işləri görülür

Muxtar respublikamızda əhalinin ərzaq məhsullarına olan tələbatının keyfiyyətli yerli məhsullar hesabına ödənilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilməkdədir. Rayonlarda iş adamlarına, fərdi təsərrüfatla, əkin-biçinlə məşğul olanlara geniş imkanların yaradılması taxılçılığın da inkişafına səbəb olub. Bu sahə ilə məşğul olan zəhmət adamları yaxın günlərdə biçinə başlayacaqlar. Bunun üçün hər yerdə hazırlıq işləri görülür.

Torpağı bərəkətli, insanları zəhmətkeş olan Sədərək rayonunda taxıl biçininə hazırlıq işləri yüksək sürətlə aparılır. Cari ilin məhsulu üçün keçən ilin payızında 2261 hektar sahədə əkin keçirilib. Bunun 1617 hektarı buğda, 644 hektarı isə arpadır.

İndi Sədərək rayonunun taxıl sahələri "sarı kəhrəba dənizi"ni xatırladır. Zəmilər bolluq, bərəkətdən soraq verir. Taxılçılar cari mövsümdə də yüksək nailiyyətlər əldə etmək əzmindədirlər.



Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, maşın və kombaynlara texniki baxış keçirilib, onlar işlək vəziyyətə gətirilib. Biçin kampaniyasına 4 taxılbiçən kombaynın, 6 yükdaşıyan maşının, 7 küləş bağlayan aqreqatın cəlb edilməsi nəzərdə tutulub. Əkin sahələrinin yanğından mühafizəsi də diqqət mərkəzindədir. Hər il olduğu kimi, bu il də məhsulun itkisiz yığılmasına diqqət göstəriləcəkdir.

**Xəbərlər şöbəsi**

*Həyat yollarımız yaşadığımız ünvanlarda salınmış yollardan keçir. Bu qədim yurd yerimizdə o yollar barədə yaxın keçmişdə hamımız narazılıqla danışmışıq. Yayda tozlu-torpaqlı, qışda palçıqlı olan bu kələ-kötür yollarla mənzilbaşına çatana kimi, necə deyərlər, varımızdan yox olmuşuq. Bu gün isə doğma yurd yerimizin ən ucqar dağ və sərhəd kəndinin yolları müasir səviyyədədir. Şərur rayonuna ezamiyyətə gedərkən yolboyu düşüncələrimə hakim kəsilən bu fikirlə yenə də müasirləşmiş yollar görəcəyimi bilirdim. Budur, Qarxun-Muğancıq-Mehrab-Məmmədsabir avtomobil yolu ilə hərəkət edirik. 3270 metr uzunluğunda yol yenidən qurularaq may ayının 18-də istifadəyə verilib. Asfalt örtük salınıb. Kənddaxili yollara da yeni həyat bəxş olunub. Yenidənqurma işləri çərçivəsində yol üzərində su keçidləri inşa olunub, beton kanal işlənib. Adıçəkilən yol bizi Muğancıq-Mehraba aparır...*



*Yeniləşən kəndlərimiz*

# Müasirliyə qovuşmuş ünvanlarda bir gün



...Muxtar respublikanın kənd yaşayış məntəqələrində olarkən həmin ünvanların daşıdığı adların toponimikası haqqında məlumat almağı adətə çevirmişəm. Bu yaşayış məntəqələrinin tarixi, kim tərəfindən salındığı, yerləşdiyi ərazinin relyefi və təsərrüfat həyatı barədə ilk məlumatları həmin bölgələrimiz haqqında yazının əhatəli hazırlanması baxımından hər zaman əhəmiyyətli hesab etmişəm. Kompleks quruculuq tədbirlərindən sonra istifadəyə verilən obyektləri ilə hələ də sakinlərinə sevinc yaşadan Muğancıq-Mehrab kəndinə getməmiş AMEA-nın müxbir üzvü, mərhum Adil Bağırovun stolüstü kitabıma çevrilmiş "Naxçıvan oykonimləri"ni vərəqləmişdim. Müəllif görkəmli tədqiqatçı alimlər Ə.Dəmirçizadənin, A.Rəhimovun, B.Budaqovun, Q.Qeybullayevin fikirlərinə istinad edərək bildirir ki, "Muğan" toponimi qədim türk tayfalarının ümumi adıdır. Alim bu qənaətə gəlir ki, respublikamızda mövcud olan "Muğan", "Muğanlı", "Muğancıq" kimi kənd, yer-yurd adları "mağ" tayfa adı ilə bağlı yaranıb, o cümlədən Şərur rayonundakı "Muğancıq-Mehrab", "Muğancıq-Müslüm" və "Maxta" adları da bu tayfa adını özündə saxlayır. Bu adda yaşayış məntəqələrinin Özbəkistan, Tacikistan, Gürcüstan, Qərbi Azərbaycan, Cənubi Azərbaycan və Türkiyədə də mövcudluğu bu fikri dəstəkləyir. Konkret olaraq "Muğancıq-Mehrab" və "Muğancıq-Müslüm" adları "Muğan", "Muğanlı" və "Muğancıq" adlarından sonra yaranıb və Muğanlı tayfasından ayrılan qolların adıdır. Bu adlarda həm tayfa, həm də ondan ayrılan tirələrə, qollara rəhbərlik edən şəxslərin adları öz əksini tapır, kəndin kimə məxsus olduğu, kim tərəfindən salındığı bildirilir.






... Bu da Muğancıq-Mehrab kəndi. Müasirliyə qovuşmuş yurd yeri. Kənddə ilk olaraq yaraşıqlı, müasir arxitektura üslubunda işlənmiş, həm də qonşu Muğancıq-Müslüm kəndini də əhatə edən Muğancıq-Mehrab Kənd Mərkəzinə baş çəkirik. Elə buradaca rastlaşdığımız inzibati ərazi dairəsi üzrə nümayəndə Mətləb Əliyev bizi köhnə tanışları kimi qarşılayır:

– Yəqin ki, köhnə binamızı yaxşı xatırlayırsınız... Dəfələrlə olmusunuz.

Əlbəttə, – deyirəm və o tikili gözlərim önündən keçir. İnsana qayğının daha bir ifadəsi olan yeni binada kəndin bütün təşkilatları üçün hərtərəfli şərait yaradılıb. Bu təşkilatlarda çalışanlar mövcud şəraitdən səmərəli istifadə etməyə səy göstərir, qarşıya qoyulan vəzifələri vaxtında yerinə yetirməklə onlara göstərilən qayğıya əməli işləri ilə cavab verirlər.

Kənd kitabxanasının müdiri Əntiqə Həsənova doğma yurd yerinin gözəlləşməsinə ürəkdən sevinənlərdən biridir: – Kəndimiz müasirləşən yaşayış məntəqələri sırasına qoşulub, tamamilə yenidən qurulub. Aparılan quruculuq işləri sırasında kitabxananın da olması gənclərdə mütaliə mədəniyyətinin formalaşdırılmasına mühüm töhfə verəcək.

Yaxınlıqdakı kənd tam orta məktəbinin binasıdır. Həmin gün istifadəyə verilən kənd məktəbinin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov kollektivi təbrik edib, tövsiyələrini verərək deyib: ***"Son 5 ildə məktəbin məzunlarının 70 faizi, ötən tədris ilində isə məktəbi bitirən 3 məzunun hər biri ali məktəblərə qəbul olmuş, onlardan ikisi 500-700 arasında bal toplamışdır. Qazanılan nailiyyətlər dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, məktəbin 1 müəllimi "Tərəqqi" medalı ilə təltif olunmuş, 1 müəllimi isə "İlin müəllimi" adına layiq görülüb. Kollektiv bundan sonra da yaradılan şəraitdən səmərəli istifadə etməli, hər bir gənc hərtərəfli təhsil almalı, peşə öyrənməli, ailəsi və ölkəmiz üçün yararlı vətəndaşa çevrilməlidir. Müəllimlər təhsilli, vətənpərvər və peşə sahibi olan gənclərin yetişdirilməsinə diqqəti artırmalı, keçilən dərsləri şagirdlərə qavramaq yolu ilə öyrətməlidirlər. Dövlətimiz tərəfindən bu işlərin görülməsində məqsəd ondan ibarətdir ki, məktəbi bitirən hər bir gənc gələcəkdə ölkəmizin inkişafına öz töhfəsini vermiş olsun".***

Kollektiv bu tövsiyəni özünün fəaliyyət proqramı kimi qəbul edib. 224 şagird yerlik binada 16 sinif otağı, kimya, fizika və biologiya laboratoriyaları, hərbi kabinə, şahmat, kompüter, müəllimlər və psixoloq otaqları, kitabxana və idman zalı yerləşir. Zəngin kitab fonduna malik kitabxanada ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyətindən, eləcə də oxunması zəruri olan kitablardan ibarət guşələr yaradılıb.

Məktəbdə internetə çıxışı olan 18 kompüter və 3 elektron lövhədən istifadə imkanları yaradılıb.

Məktəbin həyətində açıq idman qurğuları quraşdırılıb. Hərbi kabinə isə dərslərin lazımi səviyyədə keçilməsinə, gənclərdə hərbi-vətənpərvərlik tərbiyəsinin formalaşmasına və hərb sənətinə marağın artırılmasına imkan verib.

Məktəbin direktoru Sinduz Cəfərova deyir ki, muxtar respublikada təhsil müəssisələrinin maddi-tədris bazasının möhkəmləndirilməsinə böyük önəm verilir, təhsilin inkişafı, innovativ tədris metodlarının tətbiqi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Xüsusilə də pandemiya ilə əlaqədar bütün dünyada təhsildə müvəqqəti fasilənin yarandığı bir dövrdə elektron təhsilin, onlayn dərslərin müntəzəm təşkili, interaktiv və nümunəvi dərslərin keçilməsi də öz bəhrələrini verir. Müasir tədris üsullarını tətbiqetmə imkanları isə müəllimləri daha da ruhlandırır, onları səylə çalışmağa, şagirdlərimizin bilikli, vətənpərvər və milli dəyərlər ruhunda tərbiyə olunması istiqamətində səmərəli fəaliyyət göstərməyə sövq edir.

Həmin gün Muğancıq-Mehrab kəndində xidmət mərkəzinin də açılışı olub. 6 nəfərin işlə təmin edildiyi mərkəzdə bərbərxana, gözəllik salonu, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları mağazaları, dərzi və 2 anbar fəaliyyət göstərir.

* * *



Oxucuların diqqətinə onu da çatdıraq ki, quruculuq tədbirləri sadalananlarla bitməyib. Muğancıq-Mehrab və Muğancıq-Müslüm kəndlərində fiber-optik, yeraltı və hava rabitə xətlərinin çəkilməsi, elektrik xəttinin və 2 transformatorun təmir olunması, yeni tikililərə qaz xəttinin çəkilməsi və mövcud qaz xəttində təmir işlərinin aparılması sakinlər tərəfindən onlara göstərilən dövlət qayğısı kimi dəyərləndirilib. Bunu kənd sakini, ailə təsərrüfatı başçısı, ziyalı Feyzulla Abdullayev də dilə gətirərək dedi:

– Muxtar respublikamız üçüncü onillikdir ki, tikinti-quruculuq tədbirlərini fəaliyyət istiqaməti kimi götürüb. Təbii ki, bunun üçün iqtisadi güc lazımdır. Buna isə müxtəlif təsərrüfat sahələrini inkişaf etdirmədən, gündəlik tələbat və sənaye mallarının istehsalına şərait yaradılmadan nail olmaq mümkün deyil. Muxtar respublika sakinləri xoşbəxtdirlər ki, qədim diyarımızda bu istiqamətdə həyata keçirilən tədbirləri, onların uğurlu nəticələrini hər addımda görmək mümkündür. Bu gün qürurla demək olar ki, bir qarış torpağımız belə, əkilməmiş qalmır. Çünki torpaq adamı öz üzərində hərtərəfli dövlət qayğısını görür. İstehsal sahələrinin coğrafiyası günü-gündən genişlənir, bu isə muxtar respublikanın idxaldan asılılığını aradan qaldırır. Bizim kənddə də geniş quruculuq tədbirlərinin reallaşdırılması son 25 ildə uğurla həyata keçirilən düzgün siyasətin ifadəsidir və mən də bir kənd sakini kimi ürəkdən sevinir və dövlətimizə minnətdarlığımı bildirirəm.

* * *




Məmmədsabir kəndi bəhs etdiyimiz Muğancıq-Mehrabla yanaşı olan yaşayış məntəqəsidir. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Elman Heydərov deyir ki, may ayının 18-də kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının istifadəyə verilməsi hamımıza böyük sevinc hissləri yaşatdı. Kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, klub, arxiv, zal və statistika işçisi üçün otaqlar var.

Yeni kənd kitabxanası oxucuların sevimli ünvanına çevrilib. Binada 50 yerlik iclas zalı yaradılıb.

Rabitə Evində poçt bölməsi fəaliyyətə başlayıb. Burada 256 nömrə tutumlu yeni nəsil ATS qurulub, genişzolaqlı və sürətli internetə çıxış imkanı yaradılıb.

Həkim ambulatoriyasında baş həkim, stomatoloq, palata, doğuş, peyvənd, aptek, qeydiyyat və manipulyasiya otaqları vardır. Tibb ocağı müasir müayinə və müalicə avadanlıqları ilə təchiz olunub.

Həmin gün Məmmədsabir kəndində istifadəyə verilən xidmət mərkəzində bərbərxana, gözəllik salonu, ərzaq və təsərrüfat malları mağazaları, eləcə də 2 anbar fəaliyyət göstərir. Kənddə fiber-optik və rabitə, həmçinin hava elektrik xətləri çəkilib, 1 transformator yarımstansiyasında və 6985 metr qaz xəttində təmir işləri aparılıb, içməli və suvarma su təminatı yaxşılaşdırılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Məmmədsabir kəndində aparılan quruculuq işləri münasibətilə sakinləri təbrik edərək deyib: ***"Bu gündən etibarən Məmmədsabir kəndi muxtar respublikanın abad kəndləri sırasına qoşulur. Kənddə yol, kənd mərkəzi, həkim ambulatoriyası, xidmət mərkəzi və rabitə sistemi müasir səviyyədə qurularaq sakinlərin istifadəsinə verilir. Münbit torpaqlara malik olan kənd muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin olunmasında yaxından iştirak edir. Eyni zamanda sakinlər öz ailə büdcələrini yaxşılaşdırırlar. Dövlət bu tədbirləri ona görə görür ki, kəndlərimizdə məskunlaşma artsın, torpaqlardan səmərəli istifadə olunsun. Məmmədsabir kəndində aparılan geniş quruculuq işləri bunu bir daha təsdiq edir. Ona görə də sakinlər yaradılan şəraitdən istifadə edərək təsərrüfatlarını genişləndirməli, pay torpaqları ilə yanaşı, bələdiyyə mülkiyyətində olan torpaqlar da icarəyə götürülüb əkilməlidir. Çünki dövlətimizin əsas məqsədi ondan ibarətdir ki, kənddə yaşayan insanlar rahat yaşasın, torpaqlardan səmərəli istifadə olunsun və ölkəmiz inkişaf etsin".***

* * *

Hər üç kəndin sakinləri ilə söhbətlərimizdə yaradılanların, qurulanların onlar üçün olduğu, qorunmasının vacibliyi dilə gətirildi. Torpağa bağlı insanların bu tövsiyələrə əməl etmələrini göz işlədikcə uzanan pay torpaqlarında yetişdirilən müxtəlif kənd təsərrüfatı məhsulları, həyətyanı təsərrüfatlardakı dadlı-tamlı meyvələr də sübut edir. Bunun da bir daha şahidi olduq ki, mütərəqqi təsərrüfat formaları olan ailə təsərrüfatlarının yaradılmasına, onların fəaliyyətinə Məmmədsabir kəndində də ciddi önəm verilir. Sayı getdikcə artan belə təsərrüfatların yetişdirdikləri müxtəlif məhsullar həm rayonda, həm də Naxçıvan şəhərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkalarında, eləcə də festivallarda özlərinə xeyli alıcı qüvvəsi tapıb. Kənd sakini, təqaüdçü Nəriman Əliyev onlara göstərilən qayğıya görə minnətdarlığını bildirərək deyir ki, bu ilin ötən dövrü də məmmədsabirlilər üçün uğurlu olub. 2020-ci il də bol məhsullu il kimi şərurlulara xeyli gəlir gətirəcək, bununla onlar ölkəmizin inkişafına töhfələrini verəcəklər.

**Muxtar MƏMMƏDOV**

Turizm

# Yeni dövr üçün daxili turizmin inkişafına diqqət artırılır

***Mövcud pandemiyanın bütün dünya ölkələrində davam etdiyi bir şəraitdə turizmin inkişafı da maraqdoğuran məsələlərdəndir. Bu istiqamətdə bir çox dövlətlərdə olduğu kimi, ölkəmizdə də daxili turizmin inkişafı perspektiv məqsədlər arasında yer almaqdadır. Cari ildə iyun ayından başlayaraq sosial məsafə şərtləri daxilində turların təşkilinə başlanılması muxtar respublikamızda daxili turizm üzrə mövcud resurslarımızdan maksimum istifadə məsələlərini gündəmə gətirir. Çünki turizm və rekreasiya istənilən şərtlər daxilində hər bir insanın əsas tələbatlarından biridir.***



Beynəlxalq turizmdən fərqli olaraq, daxili turizm sırf ölkə daxilində həyata keçirilən səyahətlər hesabına formalaşır. Valyuta gəlirləri gətirməsə də, daxili turizm getmə turizmdən ölkənin itirdiyi valyuta vəsaitlərinin qarşısını aldığı üçün idxaləvəzləyən turizm tipi də hesab olunur. Bundan başqa, əcnəbi turistlərin səfərləri zamanı zəruri olan bir sıra ciddi rəsmiyyətçilik və tənzimləmə tədbirlərinə ehtiyac duyulmayan daxili turizmdə başqa ölkələrdən gələ biləcək hər hansı təhlükənin, o cümlədən turistlərin daşıyıcısı ola biləcəyi kəskin yoluxucu xəstəliklərin yayılması riski olduqca aşağıdır. Ona görə də “Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Sərəncamında daxili turizmin də bundan sonrakı dövrdə prioritet olacağı göstərilib, digər sahələrlə yanaşı, bu sahənin inkişafının dövlət tərəfindən dəstəklənməsi və özəl investisiyaların cəlb olunmasının təşviq edilməsi məqsədəuyğun hesab edilib.



Zəngin turizm ehtiyatlarına malik olan Naxçıvan Muxtar Respublikasında daxili turizmin inkişafını qısa olaraq mövcud insan resursları, şəhər mədəniyyəti, müasir kənd infrastrukturu, sosial həyatdakı yüksək tələbatlar və xidmət sektorundakı peşəkarlıqla xarakterizə etmək mümkündür. Bu mənada, Naxçıvanın turizm cazibəsi kimi ölkəmizin vətəndaşlarının nəzərində ilk olaraq müqəddəs Əshabi-Kəhf ziyarətgahı, əzəmətli Haçadağ, Əlincəqala əfsanəsi, Duzdağın şəfalı möcüzəsi, Şahbuz və Ordubadın gözəl təbiət guşələri, nadir memarlıq inciləri, bənzərsiz dad-tamı olan Naxçıvan meyvələri və milli mətbəx nümunələrimiz canlanır. Bu ehtiyatlar, eləcə də Naxçıvanda son illərdə yaradılmış yüksək səviyyəli yol, rabitə, enerji infrastrukturu və sosial-mədəni şərait turizmin bir çox növləri üzrə geniş imkanlar yaradır. Ötən dövrdə bu şəraitdən istifadə olunması ilə il ərzində Naxçıvana səyahət edən turistlərin sayı 400 mindən artıq olub. Bu mənada, Naxçıvan Muxtar Respublikası əldə olunmuş təcrübənin, qazanılmış turizm imicinin bundan sonrakı dövrdə daxili turizm hesabına da davam etdirilməsi məqsədilə qarşıya qoyulmuş vəzifələrin icrası ilə ölkəmizin turizm bazarı üçün geniş potensial vəd edir.

Turizm insanların asudə vaxtlarının səmərəli təşkilinə və çox sayda yeni iş yerlərinin yaradılmasına səbəb olur. Bu mənada, Naxçıvanda daxili turizmin inkişafı həm yerli sakinlərin, həm də ölkəmizin digər yerlərindən muxtar respublikaya gələn insanların sayı və onların səyahət motivlərinin yerli resurslar hesabına əvəz olunması imkanlarına baxmaq lazımdır. Getmə turizm istiqamətində naxçıvanlıların indiyə qədər ölkəmizin digər regionlarına, eləcə də Türkiyə və Gürcüstana etdikləri səyahətlərin daha sərfəli qiymətlər və daha təhlükəsiz şərtlər daxilində muxtar respublikamızın turizm-rekreasiya məkanlarında təşkili ilə əvəz olunması bu baxımdan gələcəkdə qarşıya qoyulan vəzifələrdəndir. Eləcə də ölkəmizin digər yerlərindən Naxçıvana gələcək turistlərin sayının da yaxın perspektivdə artacağı gözlənilir. Rəqabət baxımından daxili turizm bazarımızın dünya turizm bazarının bir ünsürü olduğunu nəzərə alsaq, buradakı servis qiymətlərinin və keyfiyyətinin yaxın gələcəkdə aparıcı faktor olacağını düşünmək olar. Digər bir tərəfdən bu dövrün həm də daxili turizm bazarının rəqabət qabiliyyətinin artırılması fürsəti kimi də dəyərləndirilməsi mümkündür. Bu mənada, Naxçıvanda dövlət dəstəkli sosial tur layihələr üzrə keçmişdə əldə olunmuş müsbət təcrübənin və sosial paket turların da burada çox effektli təşviqedici gücə malik olacağını qeyd edə bilərik. Qarşıdakı dövrdə qış xizək turizminin də təşkil olunduğu Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinə, eləcə də Şahbuz və Ordubaddakı kəndlərdə mövcud olan villatipli kənd evlərinə daha çox yerli sakinin mənalı istirahət üçün üz tutacağı şəksizdir. Bundan əlavə, bu gün Naxçıvan Muxtar Respublikasında mərkəz nöqtəsi Naxçıvan şəhəri olmaqla, Naxçıvan-Batabat, Naxçıvan-Ağbulaq, Naxçıvan-Ordubad-Gəmiqaya, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Əlincəqala və Naxçıvan-Qarabağlar istiqamətlərində turizm marşrutları da fəaliyyət göstərir. Bu turizm marşrutları üzrə tur proqramlara qatılan hər yaş kateqoriyasından olan turistlərə birgünlük maraqlı tanışlıq-dərketmə ekskursiyaları da böyük tələbat görən səyahətlərdəndir.



***Heç bir çətinlik insanın elmi və yaradıcı qüvvəsindən güclü deyildir. İnsanın mühüm sosial tələbatlarını ödəyən turizmin də hazırkı pandemiyadan daha az zərər görməsi üçün Naxçıvan Muxtar Respublikasında daxili turizmin inkişafı üçün görüləcək hər bir iş qədim diyarın qazandığı turizm imicinin daha da artırılması və məşğulluq məsələlərində çox effektiv olacaq.***

**Əli CABBAROV**

Təbii sərvətlərimiz

# Muxtar respublikamızın perspektivli təbii sərvəti – *seolit*

*Naxçıvan Muxtar Respublikası flora və fauna ilə yanaşı, mineral sərvətlərinin ehtiyatına və müxtəlifliyinə görə də çox zəngindir, ərazisində 40-dan artıq müxtəlif faydalı qazıntı yataqları mövcuddur. Bunlardan Duzdağ daşduz, Nehrəm dolomit, Biləv zəy süxurları, Gümüşlü qurğuşun-sink, Kotam kobalt, Xal-xal sərbəst mis, Buzqov, Şahtaxtı, Qarabağlar travertin, Şahbuz, Babək gil minerallar, Gümüşlü kvarsit, Biçənək torf, Gömür kükürd, Parağaçay, Qapıcıq molibden və Ordubad rayonunun Məzrə kəndindən Şahbuz rayonunun Güney Qışlaq kəndinədək uzanan seolittərkibli yataqlar kimi sənaye əhəmiyyətli sərvətimizi misal göstərə bilərik. Təbii sərvətlərin mühafizəsi, onlardan səmərəli istifadə etməklə tətbiqinə nail olmaq, hazırda fundamental elmin mühüm və perspektivli məsələlərindən biridir.*



*Kükü çayının yuxarı hissəsində seolittərkibli zolaq*

Muxtar respublikanın mineral xammalları içərisində xalq təsərrüfatının müxtəlif sahələrində tətbiq olunanlardan biri də seolitlərdir. Dünya praktikasına əsaslanaraq demək olar ki, müasir dövrün ən aktual problemi olan tullantıların utilizasiyası və basdırılmasında yüksək fiziki-kimyəvi xassələrə malik və maya dəyəri aşağı olan təbii seolitlərdən geniş istifadə olunur. Unikal xassələrə və spesifik kristal quruluşa malik seolitlərdən sənaye tullantı kükürd və karbondan təmizlənməsində geniş istifadə olunması məlum və perspektivli sayılır.

Dünyada mövcud olan 200 sintetik və 50-yə yaxın təbii seolitdən yalnız səkkizi sənaye əhəmiyyətinə malikdir. Sevindirici haldır ki, Naxçıvanın təbii seoliti məhz bu səkkizliyə daxil olanların sırasındadır.

Qeyd edək ki, sənaye əhəmiyyətli o yataqlar hesab olunur ki, orada seolitin miqdarı 50 faizdən artıq olsun. Naxçıvanın seolittərkibli yataqlarında bu mineralın miqdarı 70-75 faiz arasında dəyişir.

Muxtar respublikanın seolittərkibli yataqları aydın yaşılımtıl-mavi rəngi ilə digər minerallardan fərqlənir. Naxçıvanın seolittərkibli süxurları cənub-şərqdən şimal-qərbə Düylünçay və Qaradərəçaylar arasında, Nurs-Türkeş çökəkliyindən Zoğalasu çayı boyunca, şimal-qərbə isə Kükü çayından Qızıl Qışlaq kəndinə qədər geniş zolaqla uzanır.

Seolitlərin ən geniş tətbiq sahələrindən biri suyun təmizlənməsidir. Onun vasitəsilə suyu insan orqanizmi üçün ziyanlı olan maddələrdən təmizləmək mümkündür.

Seolitlərdən doldurucu kimi tara karton qutuların istehsalında istifadə edilir. Belə kartonlar öz daxilində mikroiqlim yaradaraq tərəvəzlərin saxlanma müddətini uzadır, keyfiyyətini saxlayır və onlar zədələnmir. Meyvə-tərəvəz saxlamaq üçün istehsal olunan tara karton qutularının tərkibinin 40%-nin təbii seolitdən olması onların saxlanma müddətini 3-5 dəfə artırmış olur. Kağızın istehsalında da seolitdən geniş istifadə edilir.

Neft-kimya sənayesində neftin ayrılması prosesində seolitlərdən katalizator kimi geniş istifadə olunur. Seolit-katalizatorlar üzərində dünyada hər gün 5 milyon ton neft istehsal olunur və belə qurğularda seolitin illik sərfi 350 min ton təşkil edir.

Heyvandarlıq və quşçuluq təsərrüfatlarında seolitlərdən profilaktik və müalicəvi əlavə kimi istifadə olunması məhsuldarlığın artması ilə yanaşı, heyvan və quşlarda xəstəliyə qarşı profilaktikanı da təmin edir.

Seolitlər həm də gübrə istehsalında əlavə kimi tətbiq olunur. Bu halda bir neçə müsbət nəticə əldə edilir, gübrə torpaqda uzun müddət qalır, qida maddələrinin yuyulmasının qarşısı alınır, sərf olunan gübrənin miqdarı azalır, torpağın mikroflorası yaxşılaşır və məhsuldarlıq artır.

Təbiətdə ən güclü zərərli maddələri insan orqanizmindən xaric edən mineralın seolit olduğu da dünya alimləri tərəfindən sübuta yetirilib. Belə ki, seolitlər insan orqanizmində olan zərərli maddələri, ağır metalları öz quruluşuna hopduraraq orqanizmdən xaric edir. Bu səbəbdən də orqanizmin ən həssas üzvləri – beyin, sinir, hormon və immun sistem, qaraciyər zərərli maddələrdən mühafizə olunur.

Digər tərəfdən seolitlər tikinti materiallarının istehsalında əlavə kimi geniş istifadə olunur, bu isə onların davamlılığına və möhkəmliyinə müsbət təsir göstərir.

Seolitlərdən stomatologiyada da geniş istifadə edilir. Yeni nəsil stomatoloji farforların tərkibinə seolit əlavə olunur ki, bu da onların tez dağılmasının qarşısını alır. Sadalanan tətbiq sahələri bu mineralın nə qədər əhəmiyyətli olduğunu bir daha sübut edir. Təbiətin muxtar respublikamıza bəxş etdiyi və geniş tətbiq sahəsinə malik, ehtiyatı milyon tonlarla ifadə olunan bu unikal mineralın xalq təsərrüfatının müxtəlif sahələrində səmərəli tətbiqinə nail olmaq iqtisadiyyatımıza öz töhfəsini verə bilər.

Onu da qeyd edək ki, sintetik seolitlər yüksək maya dəyərinə görə az miqdarda istehsal olunduğundan sənayedə və yeni texnologiyaların hazırlanmasında onun tətbiqi problemlər yaradır. Bu baxımdan laboratoriya və yaxud sənaye səviyyəsində alınan seolitlərin yerinə təbii seolittərkibli ehtiyatlardan istifadə etmək daha sərfəlidir.

*Ümid edirik ki, belə unikal xassəli mineralın tətbiq sahələri genişlənəcək və həyatımızda daha böyük rol oynayacaq.*

**Günel MƏMMƏDOVA**
***AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun laboratoriya rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent***

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən keçirilən “Milli ornamentlərimiz rəsm əsərlərində” adlı rəsm müsabiqəsinin 11 may-3 iyun tarixlərində qeydiyyatı yekunlaşdırılıb.*

# Milli ornamentlərimiz rəsm əsərlərində



Məlumat üçün bildirək ki, onlayn müsabiqəyə, ümumilikdə, 93 uşaq, yeniyetmə və gəncin 148 rəsm əsəri buraxılmışdı. Müsabiqəyə 7-12 yaş kateqoriyası üzrə 31 nəfər 45, 13-17 yaş kateqoriyası üzrə 50 nəfər 82, 18-29 yaş kateqoriyası üzrə 12 nəfər 21 rəsm əsəri təqdim etmişdi. Onların sırasında Bakı məktəbliləri də olub. Qeydiyyat bitdikdən sonra Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən müəyyən edilmiş münsiflər heyəti müsabiqəyə təqdim olunmuş rəsm əsərlərinə baxış keçirib. Seçim zamanı müəllifin yaşı nəzərə alınaraq düzgün kompozisiya, rəng seçimi və ideya əsas götürülüb, müsabiqəyə təqdim olunan işlərin bədii dəyəri nəzərə alınıb.

Münsiflər heyətinin 8 iyun tarixli yekun qərarına əsasən qaliblər və müsabiqədə fərqlənən şəxslər müəyyən edilib.

Qaliblər diplom, hədiyyələr və pul mükafatları ilə təltif olunacaq, fərqlənən iştirakçılara fəxri fərmanlar təqdim ediləcək.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

Yurdumuzun nemətləri

# Müqəddəs torpağın ehsan meyvəsi



***Gözümü açandan kəndimizdəki həyatimizdə irigövdəli tut ağacları görmüşəm. Evimizdən isə heç vaxt tut qurusu və doşabı, mürəbbəsi əskik olmayıb. Həyətdəki tut ağacının ən böyüyünün altında qurulan taxt yazda, yayda, payızda istirahət yerimiz olub. Elə ki yay gəldi, samovar salıb, kəklikotulu çay dəmləyib tut ağacının kölgəsində əyləşməyin ayrı dadı var. Hələ böyük süfrələr açıb tut çırpmağı demirəm. Yayın cırhacırında gecələr bu ağacın altında yatdığımız günlər də az olmayıb. Hər dəfə bu ağacın kölgəsində əyləşəndə qonşuluqda yaşayan Sona nənənin şirin söhbətini dinləməkdən zövq alardıq.***

Yaxın günlərdə – tut mövsümündə uşaqlığımın tut kimi baldan şirin xatirələri məni ixtiyarsız olaraq ata ocağıma çəkib apardı. Sona nənə qonşuları tutun yığılmaq mövsümüdür, gəlin, – deyib toplamışdı həyətə. Kimi böyük çadır gətirmişdi, kimisi isə mürəbbəlik, doşablıq tut seçmək üçün ləyənlər. Uşaqların sevinci isə nəyə desən dəyərdi. Çadırın uclarından tutmağa can atan balacalar göydən yağan “tut yağışı”nın üst-başlarını şirə etməsinə məhəl belə, qoymurdular. “Tutun budaqlarını ehmalca silkələ, ay oğul”, – deyib ağaca çıxan nəvəsinə səslənən 90 yaşlı Sona nənə ilə şirin söhbətə başlayıram. O deyir :

– Əzəldən bu ağacları çay və arxların kənarlarına, sonralar həyətyanı sahələrə əkiblər. Babam deyərdi ki, tut ağacını ya çəpər dibinə, ya da yol, arx kənarına əkin, qoy böyüyüb bar verəndə ondan yoldan ötənlər də yeyə bilsinlər. Tut meyvəsi ehsan sayılıb, onu dədə-babadan yığıb qonum-qonşuya pay etmişik. Biz gözümüzü açandan bunu belə görmüşük. Tut ağacları həm də müqəddəs sayılıb. Hətta əsrlər öncə insanlar tut ağaclarını müqəddəs ocaq, pir hesab ediblər. Qədim ziyarətgahımız Əshabi-Kəhfdəki tut ağaclarını görənlər onun Günəş şüasının, havanın, münbit torpağın yetərli olmadığı bir yerdə daşı yarıb bitməsini və məhsul verməsini heyrətlə izləyirlər. Tut nadir ağacdır ki, onun həm yarpağı, həm budağı, həm meyvəsi, həm də oduncağı çox qiymətlidir. Tarixən bir sıra milli musiqi alətlərimizin ifa zamanı daha gözəl səslənməsinə nail olmaq üçün onlar məhz tut ağacından hazırlanıb. Ağırlığa və rütubətə davamlılığına görə keyfiyyətli inşaat materialı hesab edilir. Ondan yüksəkkeyfiyyətli mebel, su dəyirmanının unluğu, təknəsi, xəlbirin və ələyin sağanağı, ət döymək üçün toxmaq, tüfəng qundağı, çəlləklər hazırlanır. Qabığından lif, kökündən isə qızılı-sarı rəng alınır ki, bundan da ta qədim zamanlardan boyaq sənayesində istifadə edilib. Ölkəmizdə qədim tarixə malik ipəkçiliyin əsasını təşkil edən baramaqurdu yalnız tut yarpağı ilə qidalanır. Qurumuş tut budaqlarından təndirdə yaxşı oduncaq kimi istifadə edilir, közü üstündə bişirilən kabab daha ləzzətli olur.

Nənənin bu söhbətinə qoşulan qonşu Nazilə xala deyir:

– Səhər tezdən tut meyvəsini yemək isə min dərdin dərmanıdır. Bu meyvə İkinci Dünya müharibəsi illərində insanlara gərək olub, onları aclığın caynağından xilas edib. Həmin illər şirni, şəkər tapılmadığından çayı tut qurusu ilə içmişik. Ürək-damar xəstəliklərindən qorunmaq, dava-dərmandan qaçmaq istəyən insanların dadına tut qurusu çatıb. Dərdlərin dərmanı, yaraların məlhəmi olan tut doşabı bu yerlərdə daha çox bişirilir. Doşab və ondan hazırlanan xörəkləri yeyənlər heç bir xəstəlik tapmazlar. Əvvəllər qış aylarında daha çox xəşil, tərhalva bişirilərdi ki, onlar da doşabsız olmazdı. Yadımdadır ki, qaraciyəri ağrıyan adamlara da səhər-səhər müəyyən miqdarda doşab içməyi məsləhət görərdilər. Nənə-babalarımızdan eşitmişik ki, tut meyvəsinin şirəsi boğaz ağrıları və difteriyada faydalıdır, anginada qarqara kimi istifadə olunur. Kim bilir, bəlkə də, elə bu yaşa çatmağımın səbəbi daha çox tut qurusu və tut doşabını süfrəmdən əskik etməməyimdir. Sümük, oynaq ağrıları zamanı tut yığılıb qıcqırdılmış çəlləyə girmək çox faydalıdır. Tut yarpağını sivrimlə bir yerdə qaynadıb soyuyandan sonra qarqara edəndə diş ağrısını kəsir.



Nazilə xala onu da əlavə etdi ki, ana-nənələrimiz tut yarpağından da mətbəximizdə geniş istifadə edib. Tənək yarpağı kimi dolma büküb bişiriblər. Hətta bəzi rayonlarda tut yarpağını xırda-xırda doğrayıb kətəyə içlik hazırlayırlar. Bu ağacın yarpağını şorabanın üstünə qoyanda ətri gözəl olur.

Aşsüzəndəki tutu təmizləyə-təmizləyə saf-çürük edən, yetişmişləri ilə nisbətən kal olanları ayrı-ayrı ləyənlərə yığan Sona nənə qara, ağ və xar tut mürəbbələrinin hazırlanması qaydasından danışdı:

– Mürəbbənin hazırlanması üçün 1 kiloqram tut və 500 qram şəkər tozu tələb olunur. Tutu təmiz yuduqdan sonra qaba yığın, üzərinə şəkər tozu tökün və 5-6 saat sərin yerdə saxlayın ki, şirəsini versin. Sonra od üzərinə qoyub hazır olana qədər bişirin, köpüyünü yığdıqdan az sonra mürəbbə hazır olur. Xar tutun yetişməsi avqust ayına təsadüf etdiyindən onu qurutmaq olmur. Ona görə ondan mürəbbə və yaxşı kompot bişiririk.

Nənədən əsl tut doşabının hazırlanma qaydasını da öyrənmək istəyəndə o, həvəslə belə cavab verdi:

– Doşab isə, mən deyərdim ki, tutdan hazırlanan məhsulların şahıdır. Onu bişirmək üçün, demək olar ki, bütün ailə üzvləri səfərbər olunur. Meyvə toplandıqdan sonra onu təmizləyib qazana yığır, ocağın üzərinə qoyuruq. Zəif odda qaynayan tutu qarışdırıb əzirik. Soyuması üçün bir az saxlayır, sonra torbaya töküb üzərinə bir ovuc torpaq da atırıq. Rəhmətlik nənəm bu torpağı həmişə məscidin həyətindən və ya hansısa ziyarətgahdan gətirdərdi. Sonra həmin torbanı vedrənin üstünə qoyduğumuz böyük bir aşsüzənə yerləşdirir, üzərinə daş düzürük. Tut qarışığı səhərdən-axşama və ya axşamdan-səhərə kimi süzülür. Daha sonra əldə olunan şirəni ocaq üstünə qoyub qaynadırlar. Bu zaman çox diqqətli olmaq lazımdır. Çünki bişirilmə prosesində şirənin vaxtında götürülməməsi doşabın yanması ilə nəticələnə bilər. Bu da əldə olunan məhsulun keyfiyyətinə və dadına ciddi təsir göstərir. Şirəni isə qatılaşıb qaralana kimi gözləmək lazımdır. Doşab bişəndə üzərinə yığılan köpüyə sarıkök deyirlər. Bu, əsasən, uşaqların sevimli şirniyyatıdır.

Nənə deyir ki, üzümdən də doşab hazırlayanlar var. Amma bir çox xəstəliklərə qarşı ən effektiv vasitə tutdan hazırlananıdır. El arasında deyilənlərə görə, tut doşabı 72 dərdin dərmanıdır. Bilirsiz, bir dəfə kəndimizə gələn həkim qonağın da dediklərindən yadımda qalıb ki, tut və ondan hazırlanan məhsullar, xüsusilə də doşab immuniteti möhkəmləndirir, ağciyər və yuxarı tənəffüs yolları xəstəliklərinin müalicəsində çox faydalıdır. Qaraciyər, öd, mədə-bağırsaq xəstəliklərində müalicəvi əhəmiyyətə malikdir. Tutun bir neçə növü olmasına baxmayaraq, ən yaxşı, ən xeyirli bəkməz şah və bedana növlərindən alınır. Bəs tutu necə qurutsaq, yaxşı olar? – deyib nənədən məsləhət alırıq. O, bu mövzudakı təcrübəsini də bizimlə bölüşür:

– Meyvə tam yetişməmiş olanda yığılır. Onu təmizləyib açıq havada süfrə üzərinə səririk. Diqqət etməliyik ki, üzərinə yağış yağmasın, yoxsa onu qışa saxlamaq olmaz. Qurudulmuş meyvəni pambıq parçadan hazırlanmış torba və ya şüşə balonlarda saxlamaq məsləhətdir. Onda meyvə qurusu daha keyfiyyətli qalar. Ay bala, indi siz ağ gündə yaşayırsınız, biz müharibəni, aclığı görüb gəlmişik. Hər yaz gələndə gözümüz bu ağacların barında qalıb. Hansı il tut bol olub, həmin qış süfrəyə qoymağa yavanlıq – doşab, tut qurusu tapmışıq. Bu bizim həm yeməyimiz, həm də dərmanımız olub. Elə vaxt olub tut qurusunu döyüb un halına gətirmişik, ondan balaca kündələr düzəldib sacda bişirmişik. Nənənin söhbətinin bu yerində səhərdən onlara kömək edən ailə təsərrüfatı başçısı Fatma xanım deyir: – İndi Tanrıya şükür, dövlətimiz hər cür şərait yaradıb ki, kəndli də gün-güzəranını yaxşılaşdırsın. Mən hər il yüz kiloqramdan artıq doşab bişirirəm, tut mürəbbəsi, kompot hazırlayıram. Tut qurusundan da yaxşı gəlir əldə edirəm. Müştərisi başının üstündədir. Elə ki mövsümü başladı, gəlib qapıdan alıb aparırlar. Festivala da çıxarırıq məhsullarımızı. Çox adam Bakıdan, Rusiyanın uzaq yerlərindən burada yaşayan qohumlarına sifariş verir ki, bizə tut qurusu, doşabı göndərin.

Artıq Günəş dağların arxasına çəkilir, yavaş-yavaş qaranlıq düşür. Səhərdən həyətdə hərəsi bir işin qulpundan yapışan qonşulardan kimi mürəbbəlik, kimi doşablıq, kimi isə qurutmaq üçün seçdiyi tutu götürüb evinə yollanır. Bu gün növbə bu həyətdəki tutun idi. Sabah isə digər qonşunun həyətindəki ağacın meyvəsini toplamağa gedəcəklər. Beləcə, yayda yığılan tədarük qışda süfrələrimizin bəzəyi, dərdlərimizin dərmanı olacaq. Qapınız həmişə açıq, süfrəniz bərəkətli olsun.

**Ramiyyə ƏKBƏROVA**

## Gənclərin asudə vaxtının səmərəli təşkili diqqət mərkəzindədir




*May ayında pandemiya ilə əlaqədar olaraq ölkə və muxtar respublika ərazisində müəyyən olunmuş karantin rejimi dövründə gənclər arasında “Zoom” proqramı vasitəsilə “Kim? Nə? Hara?” intellektual oyunu, Cek Londonun “Həyat eşqi” hekayəsinin onlayn müzakirəsi, bir qrup gəncə “İrəli” İctimai Birliyi ilə birlikdə “Layihələrin yazılması və idarə edilməsi”, “Fəaliyyət planının qurulması” və “Büdcə planlaşdırılması” mövzularında onlayn təlim keçilmişdir.*

Nazirliyin “Instagram” səhifəsində sərbəst güləşçi, üçqat dünya çempionu Hacı Əliyev və “Qızıl qələm” mükafatı laureatı, yazıçı Elxan Elatlı ilə gənclərin onlayn görüşü təşkil olunmuş, gənclər arasında “Mən muxtar respublikanın tanıdılması və inkişafı üçün nə etmişəm?” adlı inşa yazı, eləcə də rəsm müsabiqəsinə start verilmişdir. Gənclərin asudə vaxtlarının səmərəli təşkil edilməsi, onlarda mütaliəyə marağın daha da artırılması üçün “Mütaliədən qalma”, Azərbaycan tarixində müstəsna xidmətləri olmuş şəxslərin, ərazi bütövlüyümüz uğrunda şücaət göstərmiş döyüşçülərin, o cümlədən Milli qəhrəmanların gənclər arasında tanıdılması məqsədilə “Mənim qəhrəmanım” adlı onlayn vətənpərvərlik aksiyaları davam etdirilmiş, gənclərin məşğulluğunun təmin edilməsi ilə əlaqədar hərbi xidmətdən tərxis olunmuş gənclərin peşə ixtisası kurslarına cəlbi istiqamətində işlər aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tərəfindən məktəblilər arasında onlayn şahmat yarışları, ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr edilmiş internet üzərindən Naxçıvan şahmatçıları ilə Türkiyənin Mersin şəhərinin “Modern”, Antalyanın “Çallı Spor”, Konyaaltının “Olbia”, İstanbulun “Galaksi”, Ankaranın “Gənclik və idman”, Hatayın “Şah” və Bakının “Zirə Eko Park”, “Grand Master” Şahmat klublarının şahmatçıları arasında dostluq görüşü keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində olan idman obyektlərində, həmçinin özəl fitnes zallarında yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə dezinfeksiya işləri və gigiyena tədbirlərinin müntəzəm diqqətdə saxlanılması barədə söhbətlər aparılmış, bədən tərbiyəsi və idmanın təbliği məqsədilə “Evdə qal, idmandan qalma!” şüarı altında videoçarxlar hazırlanaraq sosial şəbəkələrdə paylaşılmışdır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Növbəti distant tədris və onlayn məşğələlər təbiət mövzusuna həsr edilib

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqlar üçün həyata keçirilən kompleks sosial müdafiə tədbirləri onların cəmiyyətə inteqrasiya olunmasında mühüm rola malikdir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə müvafiq kateqoriyadan olan uşaqlar üçün distant tədris prosesi davam etdirilir, həmçinin reabilitasiya məqsədilə onlayn məşğələlər təşkil olunur. Qeyd edək ki, onlayn məşğələlər müəyyənləşdirilmiş qrafik üzrə Məhdud Fiziki İmkanlılar üçün Regional İnformasiya Mərkəzinin mütəxəssisləri, həmçinin mərkəzin Defektoloji bölməsinin Ordubad və Şərur rayonlarında yerləşən filialları tərəfindən həyata keçirilir.



5 iyun – Ətraf Mühitin Mühafizəsi Günü münasibətilə müvafiq kateqoriyadan olan uşaqlar üçün keçilən distant dərslər və onlayn məşğələlər təbiət mövzusuna həsr edilib. Dərs və məşğələlər zamanı qeyd olunub ki, bu gün ölkəmizdə, o cümlədən muxtar respublikada əlverişli ekoloji mühitin yaradılması məqsədilə dövlət proqramları qəbul edilir, bu sahədə ardıcıl tədbirlər icra olunur.

Sağlamlıq imkanları məhdud uşaqlar sözügedən mövzuda keçilən dərslərdə fəal iştirak edib, mövzu ətrafında fikir mübadiləsi aparıblar.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Naxçıvan şəhəri, “Əlincə” məhəlləsi, bina 4A, mənzil 30 ünvanında Əsgərov Hüseyn Muxtar oğlunun adına olan evin 0035883 nömrəli çıxarışı və 5802 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Qaraxanbəy kəndində yaşamış Qasımov Hüseyn Akif oğlunun adına olan JN-290 inventar nömrəli, 10304028 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 425